# RƏSMİ SƏNƏDLƏR

## İ.Ə.Həbibbəylinin Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsinə təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 dekabr tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi"nin 9.2-ci bəndinə uyğun olaraq qərara alıram:

Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağında Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçilmiş İsa Əkbər oğlu Həbibbəyli bu vəzifəyə təsdiq edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 26 oktyabr 2022-ci il**

**İ.Ə.Həbibbəylinin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına və elmin inkişafında xidmətlərinə görə İsa Əkbər oğlu Həbibbəyli 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 15 oktyabr 2019-cu il.**

**İ.Ə.Həbibbəylinin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**Sərəncamı**

Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında böyük xidmətlərinə görə İsa Əkbər oğlu Həbibbəyli "Şərəf" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 3 avqust, 2009-cu il**

**İ.Ə.Həbibbəylinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**Sərəncamı**

Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə İsa Əkbər oğlu Həbibbəyli "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 oktyabr, 2007-ci il**

**Naxçıvan Muxtar Respublikasının elm, mədəniyyət və ədəbiyyat xadimlərinə fəxri adların verilməsi haqqında**

**Azərbaycan Respublikasi Prezidentinin**
**Fərmanı**

Azərbaycan elmi, mədəniyyəti və ədəbiyyatının inkişafındakı böyük xidmətlərinə görə Naxçıvan Muxtar Respublikasının elm, mədəniyyət və ədəbiyyat xadimlərindən bir qrupuna aşağıdakı fəxri adlar verilsin:

**- "Əməkdar elm xadimi" fəxri adı – Həbibbəyli İsa Əkbər oğluna.**

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı, 9 oktyabr, 1999-cu il**